**Missiya**

«Cenevrə Çağırışı» beynəlxalq hümanitar təşkilat olub məqsədi silahlı Qeyri-dövlət Aktorlarını PƏM-in qadağan edilməsinə hörmət və əməl etməyə vadar etməkdir. «Cenevrə Çağırışı» «Öhdəliklər haqqında Aktı» imzalamış tərəflərə onlar tərəfindən götürdükləri öhdəliklərə əməl etmələrinə yardım göstərməyi, QDA-nin nəzarəti altında olan minadan zərər çəkmiş rayonlarda hümanitar mina aksiyalarının keçirilməsinə kömək etməyi və bu öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirməyi öhdəsinə götürür. «Cenevrə Çağırışı» QDA-lar tərəfindən «Piyadalar əleyhinə Minaların Total Qadağan edilməsinə riayət edilməsi və Mina Aksiyalarında Əməkdaşlıq üzrə Öhdəliklər haqqında Akt»ı imzalanmaqla onların minaların qadağan edilməsi normalarına riayət edə bilmələri üçün yeni mexanizm təklif edir. İsveçrə Respublikasının Hökuməti və Cenevrə Kantonuna saxlanılmaq üçün verilən bu Akta imza etməklə QDA aşağıdakıları öhdəsinə götürür:

- Bütün hallarda PƏM-in istifadəsinə, istehsalına, əldə olunmasına, verilməsinə və saxlanılmasına tam qadağana riayət etmək;
- Mina ehtiyatlarının ləğv edilməsi üzrə proqramları hazırlamaq, onların həyata keçirilməsində əməkdaşlıq və ya yardım etmək, minalanmış əraziləri təmizləmək, mina qurbanlarına kömək göstərmək və əhalinin daha da məlumatlandırılmasına yardım etmək;
- Monitorinq keçirmək və götürdükləri öhdəliklərin yerinə yetiririlməsi üzrə «Cenevrə Çağırışı»nın keçirdiyi monitorinq və qiymətləndirmədə əməkdaşlıq etmək;
- Götürdükləri öhdəliklərin yerinə yetiririlməsi və praktiki olaraq həyata keçirilməsi üzrə komandirlər və siravi əsgərlər üçün zəruri əmrlər vermək;
- Götürdükləri öhdəliklərə hümanitar normaların idealları ilə bağlı öhdəliklərin daha geniş spektrinin ilk addımı və ya hissəsi kimi baxmaq.

QDA-ların öhdəliklərinin götürülməsinin bütün prosesi ərzində «Öhdəliklər haqqında Aktın» 6-cı maddəsinə uyğun olaraq QDA-lar başa düşürlər ki, bu sənədin onlar tərəfindən imzalanması onların mövcud leqal statusunu dəyişdirmir. «Öhdəliklər haqqında Akt» paralel inkişafı təmin etmək üçün MQM-i tamamlayır ki, bunun da məqsədi QDA-lardan öhdəliklərin alınmasıdır. Onun ən böyük məqsədi minalardan zərər çəkənlərin əziyyətlərinə son qoymaqdır və o, sülhün möhkəmlənməsi və QDA-larin başqa hümanitar normaları dəstəkləməsində iştirak etmələri digər hərəkətlər üçün bünövrə qoyur.